**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**POLİTOLOGİYA VƏ SOSİOLOGİYA KAFEDRASI**

**5904.01- SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR və**
**5908.01 – SİYASİ NƏZƏRİYYƏ İXTİSASLARI ÜZRƏ DOKTORANTURAYA QƏBUL ÜÇÜN**

# PROQRAM

**Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Elmi Şurasının 18 dekabr 2020-ci il tarixli 2 saylı protokolu**

**BAKI-2020**

**I Mövzu: Siyasi elmin predmeti**

Siyasət haqqında elmin sosial elmlərin ayrıca bir qolu kimi təşəkkül tapması, ABŞ-da siyasi elmin tədrisinə başlanması. Cəmiyyət həyatının siyasi sferası politologiyanın obyekti rolunda. Politologiyanın predmeti.

Nəzəri və tətbiqi politologiya: Nəzəri politologiya siyasi hadisələrin idrakı nöqteyi-nəzərdən, müəyyən elmi biliklər formalaşdırmaq mənasında öyrənən elm kimi, tətbiqi politologiya gerçəkliyin dəyişdirilməsi ilə bağlı problemləri öyrənən istiqamət kimi.

Siyasət və onun mahiyyəti. Siyasətə dövlət haqqında təlim kimi qiymət verilməsi. Aristotelin "Politika" əsəri. Siyasətin çoxcəhətli, çoxistiqamətli və çoxməntiqli mürəkkəb hadisə olması. Siyasətin ictimai həyatın bütün sferalarına təsiri və onun nüfuz etmə qabiliyyəti.

Siyasətin başlıca funksiyaları: tənzimetmə və nəzarət, inteqrativ, idarəetmə və s. Siyasət və iqtisadiyyat. Siyasət və mədəniyyət. Siyasət və əxlaq. Siyasət və din. Siyasət və elm. Siyasi həyat, siyasi fəaliyyət və siyasi proses. Siyasi həyat: insanın və cəmiyyətin siyasi varlığının mənəvi, hissi, emosional və praktiki predmetli formasıdır. Siyasi fəaliyyət subyektin fəallığının xüsusi formasıdır. Siyasi prosesin politologiyanın başlıca və spesifik kateqoriyası kimi xüsusiyyəti. Siyasətin təzahür formaları. Siyasətin məzmunu ( təcavüzkar, sülhsevər, sosial, humanitar siyasət). Siyasətin növləri: iqtisadi, sosial, milli, mədəni, ekoloji, hərbi və s. siyasətin subyektləri: sinif, xalq, millət, təzyiq qrupları, siyasi partiyalar, mənafe qrupları, şəxsiyyət və s.

**II Mövzu: Siyasi elmin yaranması və inkişaf məhələləri**

Siyasi elmin inkişaf mərhələləri: siyasi baxışların rasionllaşması mərhələsi ( e.ə V- b.e.XIV əsrinədək), intibah və yeni dövrdə siyasi fikir (XVI-XIX), emprik biliyi təftiş edilməsi dövrü

XIX əsrin sonu – XX əsrin əvvəlləri,

XX əsrin 40-80-ci illəri,

XX əsrin 90-cı illəri - XXI əsrin əvvəlləri politoloji tədqiqatların istiqamətləri

**III Mövzu: Siyasi elmin məktəbləri (ABŞ, Böyük Britaniya, Fransa)**

ABŞ-da siyasi elmin təşəkkül mərhələləri. Amerika siyasi elminin positivist metodologiyaya əsaslanması. Çikaqo məktəbi (Ç. Merriam, H. Lassvel, H.F. Qosnell, L.D. Hayt, K.Rayt) Əcnəbi mütəxəssislərin (Y. Şumpeter, H. Hayek, H. Morgentau və s.) Amerika siyasi elminin inkişafında rolu. Emprik tədqiqatların artması ( Q. Almond, S. Verba, A. İnkeles, R. İnqlhart, S. Barnz, R. Patnem və b.)

Amerikada politoloji tədqiqatların istiqamətləri ( Amerika idarəetmə və siyasətin əsasları: müqayisəli siyasətin təhlili, beynəlxalq münasibətlər v dünya siyasəti, siyasi fəlsəfə və siyasi elm). Tətbiqi politologiyanın inkişafı

Böyük Britaniyada siyasi elm. Siyasi elmin inkişafında H. Laskinin rolu. Siyasi ideyalar tarixinin tədqiqi ( R. Karlayl, E. Barker). Siyasi fəlsəfənin inkişafı ( B. Rassel). Neoliberalizm ideologiyanın yayılması.

Keynisianlıq neoliberalizmin əsas cərəyanı kimi. Keyns prinsiplərinin postsənaye ( C. Gelbreyt), iqtisadi artımın mərhələləri (V. Rostou), rifah dövləti və s. konsepsiyalarda inkişaf etdirilməsi. Avropada sosial-iqtisadi doktrinaların tədqiqi (M. Oukeşott, T.Bottomor)

Beynəlxalq münasibətlər məktəbi (H. Bull0. K. Pompeyin "açıq" və "qapalı" sosial sistemlər haqqında fikirləri. Siyasi elmdə davranış tədqiqatlarının iki istiqaməti (iqtisadi və sosioloji) aparılması, emprik yanaşmanın üstünlüyü. ABŞ və Böyük Britaniya siyasi elminin əlsqəsi.

Almaniya politoloji məktəbi. Almaniya siyasi elminin spesifikliyi. G. Yellinek, V. Veber, R. Mihels, H.D. Klingeman və b. siyasi görüşləri. Qərbi Avropa sosial demokratiyasının alman siyasi elminə təsiri ( F. Lassal, E. Bernşteyn, K. Kautaki, A. Bebel, V. Libknext). İkinci dünya müharibəsindən sonra AFR-də siyasi emdə fəlsəfi-nəzəri istiqamətin güclənməso (XX əsrin 60-cı illərinədək). Alman politologiyasında emprik tədqiqatların üstünlüyü, kəmiyyət metodlarından geniş istifadə. Fəlsəfi təmayüllü siasi elmin yaranması ( K. Yaspers, G. Rormozer, Y. Habermas, R. Darendorf)

Fransa politoloji məktəbi. Fransada siyasi elmin təsisatlanması dövrü ( XIX əsrin sonundan ikinci dünya müharibəsinədək) . Siyasi təhlildə hüquqi yanaşmaya üstünlük verilməsi ( L. Dyüqi, M. Oriu). Siyasi elmin inkişafında R.Aron və M.Düverjenin rolu.

Politoloji məktəbin inkişafına ixtisaslaşdırılmış təşkilatların təsiri. Siyasi Elmin Müəllim və Tədqiqatçıların Assosiyasiyasının yaranması. Fransada siyasi elmin ikinci təsisatlanma dövrü ( J.Esten, J.Balandye, J.V.Lapyer , P.Klavter, M.Qdelye, J.Vilyam). 70-8—ci illərdə Fransada dövlət problemlərinin sosioloji təhlili ( B.Badi, P.Birnbaum). Fransa politologiyasının "geoiqtisadi məktəb" (J.Attol)

**IV Mövzu: Siyasi elmin nəzəri-metodoloji əsasları**

Siyasi elmin metdoları və metodologiyasını təkamülü. Metodların tiplərinin siyasi fikrin inkişafında təşəkkül mərhələləri. Keyfiyyət və ənənəvi metodlara əsaslanan yeni metodların (ənənəvi, emprik) yaranması.

Siyasi hadisə və pıroseslər öyrənərkən siyasi elmin istifadə etdiyi tədqiqat metodlar (ümummәntiqi və nəzəri metodlar) Siyasi təhlildə tarixi metodun əhəmiyyəti. Siyasi sistem və rejimlərin oxşar və fərqli spesifik cəhətlərinin üzə çıxarılmasında müqayisəli-sistemli təhlil metodlarının rolu. Sisy\temli metod və onun elmi idrakda aparıcı yeri. Sistemli təhlilin səciyyəvi cəhətləri. Struktur-funksional metod və onun məqsədi. Bu metodun sistemin saxlanma və tənzimlənmə üsullarının tətbiqi üçün əhəmiyyəti. Model real siyasi pobyektin analoqu kimi buheviorçu metod, siyasi qərarların qəbulu və seçkilərin keçirilməsində siyasi davranışə öyrənən metod kimi. Onun elmin praktikaya yaxınlaşmasında rolu. Qərar qəbuletmə metodu "Oyunlar nəzəriyyəsi"nin tərkib hissəsi kimi onun elmin praktikaya yaxınlaşmasında rolu. Siyasi monitorinq siyasi vəziyyətin və inkişafın müşahidəsi, qiymətlənməsi və proqnozu üçün istifadə edilən metod kimi. Monitorinqin obyekti. Siyasi monitorinqin istifadə etdiyi metodlar (reytinq izləmək üçün sorğu, anket, ekspert qiymətləndirməsi) Monitorinqin təşkilində kompleks yanaşmanın, komputer texnologiyasının rolu kontent-təhlil metodunun siyasi qərarların və proqnozların hazırlanması və həyata keçirilməsində rolu. Kontent-təhlilin tətbiq edilmə texnikasının mərhələləri. Kontent-təhlilin növləri. "Case study" fərqlənən və təkrarlanmayan konkret hadisələri öyrənən ümumelmi keyfiyyət metodu kimi. Rasional seçim yanaşması metodunun çatımayan cəhətləri. Emprik tədqiqatlarda ekonometrik metoddaqn ( pat-təhlil, struktur tənliklər modeli və s.) istifadənin əhəmiyyəti. Siyasi elmdə eksperimental metodlardan istifadə.

Metodoloji innovasiyalar ( R.Abelson, A.Corc, Y.Havermas, Q.Saymon, L.Bartels, h.Lasvel, L.Polani, K.Popper, Y.Qaltunq və b.)

**V mövzu: Siyasi elmin əsas paradiqmaları**

Pardaiqma dərketmə probleminin qoyuluşu və həllinin xüsusi məntiqi model kimi. Siyasi elmdə teoloji, naturalistik və sosiosentrik paradiqmaların əhəmiyyəti və onların siyasətin, ictimai həyatın digər sahələri ilə daxili və xarici əlaqələrin müəyyənləşməsində rolu. Teoloji partadiqma sosial əlaqə və davranışın ictimai münasibətlərin və insan həyatının ilahi mənşəyi haqqında təlimə izah edilməsi.

Naturalistik paradiqma. Coğrafi mühitin siyasətə təsiri. Siyasi proseslərin coğrafi mühitdən və ya onun komponentlərdindən asılığı. Biosiyasət siyasətin tədqiqinin xüsusi metodikası kimi. Siyasətin mahiyyətində naturalist amillərə üstünlük verən psixologizatorçu konsepsiyalar ( Q. Tard, Q. Lebon, L. Qumploviç, A. Diltey, E. Dürkheym). İnsanların psixoloji xüsusiyyətlərindin sosial və siyasi inkişafı şərtlndirməsi, psixoloji amillərin siyasi davranışın müstəqil və prioritet mənbəyi olması.

Sosiosentrik paradiqma. Siyasətin ictimai xarakter daşıması. Onun insan həyatının müəyyən aspekti olması. Siyasətin təbiətinin iki üsulla şərhi. Sosiosentrik paradiqmaya xronoloji baxış ( universal, kulturoloji, rasional-tənqid).

**VI Mövzu: Siyasi hakimiyyət və onun daşıyıcıları**

"Siyasi hakimiyyət" politologiyanın başlıca kateqoriyalarından biridir.

Siyasətin və hakimiyyətin ayrılmazlığı və qarşılıqlı şərtlənməsi.

Siyasi fikir tarixində hakimiyyət problemi. Müasir politologiyada hakimiyyət problüminə dair fikirlər. M. Veber hakimiyyətin növləri haqqında.

Hakimiyyətin ümumiliyi( cəmiyyətin bütün sferasında fəaliyyət göstərməsi).
Hakimiyyətin nüfuz etmə qabiliyyəti.

Hakimiyyətin təzahür formaları: qanunlar, normalar, qaydalar, göstərişlər, iradi və emosional təsir. Hakimiyyətin funksiyaları: idarəetmə, təşkilati, tənzimləmə, nəzarət və s.

Hamiyytin növləri: iqtisadi, sosial, siyasi, hüquqi ( dövlət hakimiyyəti), hərbi, mədəni-informasiya və məcburetmə hakimiyyəti.

Hakimiyyətin resursları: iqtisadi, sosial, informasiya, məcburetmə (güc) və s.

Hakimityyətin tipləri: ənənəvi, harizmalı, rasional- leqal hakimiyyət.

Hakimiyyətin məzmununa dair müasir konsepsiyalar: relytivist, bixeviorçu, və sistemli konsepsiyalar.

Siyasi hakimiyyətin spesifikliyi. Siyasi hakimiyyətin aliliyi və ümumiliyi.

Siyasi hakimiyyətin funksiyaları.

Hakimiyyətin subyektləri və daşıyıcıları: siyasi elita, siyasi liderlik. Siyasi elita-ictimai strukturlarda rəhbər mövqe tutan və cəmiyyətdə siyasi qərarlar qəbul edilməsinə təsir göstərən mütəşəkkil azlıq.

Siyasi elitanın meydana gəlməsi və mövcudluq mexanizmi.

Elitaların təsnifatı.

Elitanın seçilməsi formaları: antreprener (sahibkarlıq) və gildiya sistemi.

Elita nəzəriyyələri: dəyərlər nəzəriyyəsi: demokratik elitarizm (P.Baxrax): funksional nəzəriyyə: (S.Keller): solçu liberal nəzəriyyə (H.Lassuel, R.Mills) və s.

Liderlik- qrupun rəhbərlik iddiasında olan və ya bu funksiyanı yerinə yetirilən fərd ətrafında birləşməsini təmin edən inteqrasiya mexanizmi.

Liderlik nəzəriyyəsinin dərk edilməsinə dair baxışlar (N.Makiavelli, Q.Karleyl, F. Nitşe, Z. Freyd və s.).

Liderlik nəzəriyyəsinə dair konsepsiyalar: liderin xüsi\usiyyətləri nəzəriyyəsi (E.Boqardus): situasiya nəzəriyyəsi (S.Stoqdil, T.Xilton): məsləkdaşların müəyyənedici rolu (F.Senford): psixoloji konsepsiya və s.

Liderliyin təsnifatı: hakimiyyətin legitimləşməsi üsuluna görə: davranış üsuluna görə: fəaliyyət miqyaslarına görə s.

Siyasi liderin funksiyaları: inteqrativ, sosial arbitraj, analitik, fəaliyyət proqramı hazırlamaq, təşəbbüskar, kommunikativ, əlaqələndirmə və s.

**VII Mövzu: Siyasi sistem nəzəriyyəsi**

Siyasi sistem siyasi elmin aparıcı kateqoriyalarından biridir. Siyasi sistem inkişaf edən və özünütənzimləyən orqanizmdir.

Siyasi sistemin strukturu: təsisatlanmış, normativ, funksional, kommunuikativ və mədəni struktur.

Siyasi sistemin giriş və çıxış funksiyaları.giriş funksiyaları: siyasi sosiallaşma, siyasi tənzimləmə, mənafelərin artikulyasiyası (siyasi qərarları qəbul edənlər qarşısında tələblər qoyulması), mənafelərin işə salınması, siyasi kommunikasiya (siyasi sistemlə mühit arasında qarşılıqlı əlaqə). Siyasi sistemdən çıxış funksiyaları: insanların davranışını tənzimləyən qaydaların və qanunların yaradılması, tətbiq edilməsi, onlara nəzarət edilməsi və s.

Siyasi sistemin qərarlaşmasına təsir göstərən amillər: sosial-iqtisadi, coğrafi amillər və s.

Azərbaycan Respublikasının siyasi sistemi.

**VIII Mövzu: Dövlət başlıca siyasi təsisatdır.**

Dövlətin mənşəyi, mahiyyəti və təkamül mərhələləri.

Dövlətin əsas əlamətləri məcburetmə, zor tətbiqetmə,suverenlik, ümumilik, hüquq, vergilərin toplanması və s.

Dövlətin funksiyaları daxili və xarici funksiyalar.

Dövlətin formaları: 1. Dövlətin ərazi quruluşu (unitar, federativ və konfedrativ) 2. İdarəçilik formaları (monarxiya və respublika) 3. Siyasi rejimlər (totalitar, avtoritar, demokratiya).

Dövlət və cəmiyyət anlayışlarının bir-birindən ayrılması (N. Makiavelli). Vətəndaş cəmiyyəti və dövlət anlayışlarının bir-birindən ayrılması (H.Hegel).

Hüquqi dövlətin əsas əlamətləri: qanunun aliliyi, hüququn üstünlüyü, vətəndaşların hüquqlarının müdafiəsi, dövlət hakimiyyəti həddinin müəyyən edilməsi, hakimiyyət bğlgüsü, konstitusiya nəzarəti və s.

Hüquqi dövlətin başlıca məqsədi: ictimai həyatın başlıca sferalarında öz vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə təminat vermək.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesi.

**IX Mövzu: Siyasi rejimlər**

Siyasi rejim anlayışı. İdarəetmə metodkları və üsullarının məcmusu. Siyasi rejimin dövlət sistemində müəyyənedici rola malik olması.

Siyasi rejimlərin təsnifatı: hakimiyyətin sosial bazasına görə, siyasi fəaliyyət metodlarına görə, sosial tərəqqiyə münasibətinə görə.

Totalitar rejim. İctimai həyatın bütün sferalarına dövlət nəzarəti. Əsas əlamətləri: əhali üzərində ümumi nəzarət, təkpartiyalı sistem, vahid ideologiyanın hökmranlığı, terrorçu polis nəzarəti, bütün ictimai sistemin vahid məqsədə tabe edilməsi və s.

Totalitarizmin tarixi mövcudluq formaları: kommunizm, faşızm və milli sosializm.

Avtoritar rejim. Qeyri-demokratik rejimləri və onlara uyğun olan siyasi şüur formalarını ifadə etmək üçün işlədilən termin.

Avtoritar rejimin əsas xüsusiyyətləri: hakimiyyətin daşıyıcısı rolunda bir nəfərin və ya məhdud qrupun çıxış etməsi, hakimiyyətin qeyri-məhdudluğu, onun vətəndaşların nəzarətindən çıxması, hakimiyyətin gücə arxalanması, siyasi fəaliyyətin ciddi surətdə reqlamentləşdırılməsi. Siyasi elitanın təyinetmə yolu ilə formalaşması, əhalinin siyasətdən özgələşməsi və s.

Avtoritar rejimlərin formaları: hərbi-siyasi, teokratik, avtoritar rejimli monarxiyalar, mülki avtoritar rejimlər və s.

Demokratik rejimlər cəmiyyətdə vəötəndaşlıq həmrəyliyinin yaradıcısı kimi.

Demokratik rejimlərin xüsusiyyətləri: suverenliyin xalqa məxsusluğu, hakimiyyət orqanlarının seçkili olması, vətəndaşların hüquqlarının toxunulmazlığı, qanunun aliliyi, hüququn üstünlüyü,hakimjiyyət bölgüsü, çoxpartiyalı sistem və s.

Demokratik rejimlərin formaları: prezident idarəçiliyi və parlament udarəçiliyi. Müasir dünya praktikasında qarışıq idarəçilik forması. Qeyri-demokratik rejimlərdən demokratik rejimlərə keçid (yuxarıdan islahatlar, abdikasiya, tədrici islahatlar və s.)

Azərbaycan respublikasında siyasi rejimin əsas xüsusiyyətləri.

**X mövzu: Siyasi partiyalar və partiya sistemləri**

Siyasi partiya anlayışı. Siyasi partiyalar siyasi proseslərin gedişinə güclü təsir göstərən təsisat kimi.

Partiyaların təsnifatı (D.Yum, M.Dyuverje, La Palombara, J.Şarlo, C.Sartori, Sansteban və b.).

Siyasi partiyaların funksiyaları (ictimai inkişafın məqsədlərini müəyyənləşdirmək, siyasi inkişafın strategiyasını və proqramını işləyib hazırlamaq, siyasi liderlərin seçilməsi və cəlb edilməsi, sosial nümayəndəlik və sosial inteqrasiya, siyasi sosiallaşma, hakimiyyət uğrunda mübarizə və ya hakimiyyətin həyata keçirilməsində iştirak etmək və s.).

Partiya sistemlərinin formalaşmasına təsir edən amillər: mövcud sosial strukturun xarakteri, sosial-mədəni ənənələr, siyasi sistemin təbiəti, tətbiq edilən seçki qanunvericiliyi və s.). Partiya sistemlərinin təsnifatı.

Azərbaycan Respublikasında çox partiyalı sisteimin formalaşması.

**XI mövzu: Demokratiya: əsas təsisatlar**

Demokratiya anlayışı. Demokratiya formalarının tarixi təkamülü (ibtidai, hərbi, antik demokratiya, yeni dövrün klassik demokratiyası və müasir demokratiya. Müasir demokratiyanın başlıca prinsipləri. Müasir demokratiya nəzəriyyələri: plüralist demokratiya, reprezentiv demokratiya və partisipar demokratiya nəzəriyyəsi və s.). Demokratik tranzit problemləri. Demokratiyanın növləri (birbaşa (bilavasitə), nümayəndəli (təmsilçi) və plebissitçi (formal) demokratiya).

Azərbaycan Respublikasında demokratik cəmiyyətin quruculuğu.

Parlamentin meydana gəlməsi və inkişafının əsas mərhələləri. Parlament demokratiyanın başlıca təsisatıdır. Parlamentin strukturu və səlahiyyətləri.

Parlamentin funksiyaları (qanunvericilik funksiyası, icra hakimiyyəti orqanlarının formalaşdırılması, maliyyə siyasəti və dövlət gəlirlərinin tənzimlənməsi, ictimai rəyə təsir, parlamentin impiçment funksiyası və s.

Azərbaycan parlamenti: təşəkkülü və fəaliyyət dövrləri.

Seçki anlayışı. Seçkilər demokratiyanın şərti və əlamətidir. Seçki hüququnun meydana gəlməsi. Seçki hüququnun mahiyyəti. Aktiv və passiv seçki hüququ.

Seçkinin funksiyaları (dövlət hakimiyyəti orqanlarını formalaşmaşdırmaq, əhalini siyasi proseslərə cəb etmək, sosial qrup və birliklərin mənafeyini əlaqələndirmək, təmsilçilik təsisatı münasibətləri yaratmaq və s.).

Seçki sistemləri (majoritar, proporsional və qarışıq).

Azərbaycan Respublikasının seçki sistemi.

**XII mövzu: Siyasi şüur və siyasi ideologiya**

Siyasi şüur anlayışı. Siyasi şüurun xüsusiyyətləri. Siyasi şüurun səviyyələri (fərdi, kütləvi). Siyasi şüurun funksiyaları (siyasi davranışı şərtləndirməsi, koqnitiv, ideoloji, kommunikativ və proqnozlaşdırma funksiyası).

Siyasi mədəniyyətin səviyyələri, tipləri və formaları. Siyasi mədəniyyətin funksiyaları (eyniləşdirmə, siyasi yönüm, uyğunlaşma, inteqrasiya, təhsil, tərbiyə, səfərbəredici, təhrikedici, sosiallaşma və s.).

İdeologiyanın xüsusiyyətləri. İdeologiyanın mahiyyətinə müxtəlif yanaşmalar. H.Margentau, G. Manheym, K. Marks, M.Veber və b.).

İdeologiyanın təsnifatı: Funksiyalarına görə: mütərəqqi, mühafizəkar və mürtəce ideologiya. Sosial bazasına görə: sinfi, milli, irqi və s.

İdeoloji nəzəriyyələr və cərəyanlar. Siyasi liberalizm. Siyasi konservatizm. Siyasi radikalizm. Sosialist ideologiyası (elmi sosializm və sosial demokratiya) və s.

**XIII mövzu: Beynəlxalq münasbətlər sistemi.**

Beynəlxalq münasibətlər anlayışı. Beynəlxalq münasibətlərin tipləri və formaları. Beynəlxalq münasibətlərin iştirakçıları (aktorları) (dövlətlər, beynəlxalq təşkilatlar və cəmiyyətlər, beynəlxalq (transmilli) korporasiyalar, iqtisadi, maliyyə təşkilatları, hərbi qurumlar və s.

Beynəlxalq sistemlər və onların növləri.

Beynəlxalq münasibətlər nəzəriyyəsi. "Siyasi realizm" nəzəriyyəsi (H.Morgentau). "Sülh və müharibə" nəzəriyyəsi (R.Aron). "Amillər" nəzəriyyəsi (K.Rayt). "Beynəlxalq tarazlıq" nəzəriyyəsi (C.Liski). "Əlaqələr" nəzəriyyəsi (Y.Haltunq). "Milli mənafelər" nəzəriyyəsi (L.Kaplan). "Münaqişələr" nəzəriyyəsi "Bloklara qoşulmamaq" nəzəriyyəsi və s.

Beynəlxalq münaqişələr. Münaqişələrin meydana gəlməsi səbəbləri, növləri və formaları, onların həlli yolları və vasitələri.

Xarici siyasət. Xarici siyasətin məqsəd və funksiyaları.

Xarici siyasətin vasitələri (diplomatiya, silahlı qüvvələr və təbliğat).

Milli mənafe. Milli təhlükəsizlik: mahiyyəti və istiqamətləri.

Azərbaycan Respublikasında milli təhlükəsizliyin təmin edilməsi.

Müasir qlobal siyasi problemlər: yaranma səbələri və həlli yolları.

**Ədəbiyyat**


1. Əliyev H. Ə. Müstəqillik yollarında. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. B., 1997. I - IV cildlər
2. Aristotel. Politika. B., 1997
3. Şirəliyev H. İ., Əhmədov Ə.C. Politologiya, (dərslik) B, 1997
4. Əfəndiyev M. Ə. Siyasi və hüquqi təlimlər tarixi. B., 2002
5. Əfəndiyev M. Ə. Siyasi elmin əsasları. B, 2004
6. Əfəndiyeva X.B., N.Y.Məmmədli. Politologiyadan 100 sxem. B., 2002
7. İsmayılov D. Azərbaycanın transformasiyası prosesində ideologiyalar. B., 2001

8. Əliyev Q., Dayızadə H. Konfliktologiyaya giriş. B., 1998
9. Piriyev A.M. Siyasi strategiya və milli təhlükəsizlik problemi. B., 2002
10. Platon. Dövlət. B., 2000
11. Vahidov F., Ağayev T. Sosiologiya. B., 2005
12. Politologiya. (dərslik). B., 2005
13. Kozırev Q.İ. Osnovı soüioloqii i politoloqii. M., 2005
14. Politoloqiə (xrestomatiə). Piter. 2006
15. Piriyev A., Əfəndiyeva X. Sosiologiya və politologiya fənnindən mühazirə mətnləri. B., 2009
16. Əfəndiyev M. Politologiya (dərslik). B., 2011
17. Şirinov A., İbadov N. Politologiya. B., 2013
18. Eyyubov İ. Azərbaycanın siyasi təlimlər tarixi. B, 2011